# Strateji tərəfdaşlıq möhkəmləndirilir



**Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 107-ci ildönümü ilə bağlı Ankarada "Qazi Ordu Evi"ndə təntənəli qəbul mərasimi təşkil olunub.**

Mərasim Azərbaycanın Türkiyədəki səfirliyi və onun nəzdində fəaliyyət göstərən Hərbi Attaşelik Aparatının təşkilatçılığı ilə baş tutub.

Tədbirdə Türkiyənin milli müdafiə naziri general Yaşar Gülər, bu ölkənin Milli Müdafiə Nazirliyinin, Silahlı Qüvvələrinin yüksək rütbəli zabitləri, xarici ölkələrin Ankaradakı səfirliklərinin hərbi attaşeləri və beynəlxalq təşkilatların rəsmiləri, ictimaiyyət nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Azərbaycanın Türkiyədəki hərbi attaşesi, general-mayor Zaur Zeynalov Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasından, iki ölkə arasında sarsılmaz dostluq və qardaşlıq münasibətlərindən bəhs edib. O, 44 günlük Vətən müharibəsi və birgünlük antiterror tədbirləri zamanı göstərilən qəhrəmanlıq nümunələrindən danışıb.

Türkiyənin milli müdafiə naziri Yaşar Gülər isə müasir çağırışlar fonunda iki qardaş ölkənin birliyi və həmrəyliyinin əhəmiyyətinə toxunub: "Bu tarixi birlik ilə Türkiyə və Azərbaycan arasında demək olar ki, hər sahədə, xüsusilə müdafiə və təhlükəsizlik sahəsində sıx əməkdaşlığımız mövcuddur. Bu kontekstdə Silahlı Qüvvələrimiz çiyin-çiyinə çalışır və qarşılıqlı kadr hazırlığından tutmuş ikitərəfli və çoxmillətli təlimlərə qədər geniş bir sahədə birgə fəaliyyət həyata keçirilir. Bu gün ölkələrimizin müdafiə gücünün və hərbi əməkdaşlığının gücləndirilməsi seçim deyil, bir zərurətdir".

Nazir qeyd edib ki, Türkiyə və Azərbaycan mühüm strateji mövqeyə malikdir: "Bu həqiqətdir ki, Azərbaycanın gücü bizim gücümüz, Türkiyənin gücü Azərbaycanın gücüdür. Biz gücümüzü Vətən müharibəsində bir daha bütün dünyaya göstərdik. Bu gün Qarabağda Azərbaycan bayrağının dalğalanmasından böyük qürur və xoşbəxtlik hissi keçiririk. Rəsmi Ankara və Bakının sarsılmaz qardaşlıq bağları strateji tərəfdaşlığı gücləndirir. "Ölkələrimiz hər şəraitdə birləşməli və bir-birini dəstəkləməlidir. 44 günlük müharibədə qazanılan qələbə Azərbaycan tarixinin şanlı səhifəsi olmaqla yanaşı, həm də bütün Türk dünyası üçün qürur mənbəyidir. Azərbaycanın qələbəsi Qafqaz regionunda sülh və sabitlik baxımından böyük əhəmiyyət kəsb edir".

Bu şanlı qələbənin Qafqaz regionunda sülh və sabitliyə qapı açdığını bildirən nazir deyib: "Bizim tək istəyimiz bu tarixi fürsəti dəyərləndirib, sülh müqaviləsi imzalamaqdır. Bütün bunlarla yanaşı, daimi sülhün təmin olunması üçün ölkələrimizin silahlı qüvvələri bu kontekstdə daha təsirli və daha güclü əməkdaşlıq etməlidir. Biz buna görə hər sahədə, xüsusilə də müdafiə sənayesi və hərbi əməkdaşlıqda nümayiş etdirdiyimiz birliyi, "Bir millət, iki dövlət, bir ordu" anlayışı ilə daha yüksək səviyyələrə çatdırmağı hədəfləyirik".



Qəbul konsert proqramı ilə davam edib. Tədbir çərçivəsində Azərbaycan Silahlı Qüvvələrinin şanlı tarixini əks etdirən fotosərgi nümayiş olunub.

**Esmira Yazkan ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**